

# “Neftçi”nin kapitan Əsgəri

**17 il ərzində (1979–1988) SSRİ çempionatlarının güclülər dəstəsində 222 oyun keçirib, 1 qol vurmuş Əsgər Abdullayev arxa xətdə böyük əzmkarlığı və döyüşkən ruhuna görə fədakar müdafiəçi adlandırılmağa layiq idi. Bu cəsur gənc topu şərəfini qoruduğu komandanın qapısında görməmək üçün hər şeyə hazır görünürdü. Məhz buna görə də ötən əsrin 80-ci illərinə qayıdıb, tezliklə, martın 27-də 65 yaşını qeyd edəcək SSRİ idman ustası Ə.Abdullayevin böyük futbolda keçdiyi yola, ötəri də olsa, bir daha nəzər salıb, görək yadımızda nələr qalıb.**

Yazımızın səbəbkarının Sovet İttifaqı çempionatlarının güclülər dəstəsində 222 oyunun iştirakçısı olub, 1 qol vurduğunu mərhum həmkarım Abas Əzimovun 2007-ci ildə nəşr etdirdiyi “Neftçi”–70 kitabından öyrəndim. Bundan sonra “1” rəqəmi ilə çox maraqlandım və tənbəllik etməyib, Əsgərin ilk və sonuncu qolunu məhz nə vaxt, hansı oyunda, kimin qapısına vurduğunu öyrənmək istədim. Axtarış bir qədər çox vaxt aparsa da, uğurla başa çatdı. Bu zaman həm də oyun haqqında hakim protokolunun köməyi ilə xeyli əlavə məlumat da aldım.

Həmin qol 1987-ci il iyulun 29-da 50-ci SSRİ çempionatının “Jalgiris”–“Neftçi” görüşündə qeydə alınmışdır. Vilnüsün “Jalgiris” mərkəzi stadionunda keçirilmiş oyunda hesabı 30-cu dəqiqədə meydan sahiblərinin hücumçusu Pankratyev açmış, moskvalı hakim Sergey Xusainovun final işarəsinə 2 dəqiqə qalmış isə hücumçu dostlarının köməyinə gələn Əsgər komandasını məğlubiyyətdən xilas etmişdir – 1:1.

“Neftçi” tribunalardan 11 min azarkeşin izlədiyi görüşdə belə heyətdə oynamışdır: Aleksandr Jidkov, Mustafa Bilalov, Əsgər Abdullayev, Arzu Mirzəyev (Mehman Allahverdiyev, 64), Andrey Fedorovski, Nazim Süleymanov, Yunis Hüseynov (Novruz Əzimov, 88), Şakir Qəribov, İqor Ponomaryov, Maşallah Əhmədov, İsgəndər Cavadov.

Yubiley çempionatında 16 komanda çıxış etmiş, bakılılar yekun cədvəlində 28 xalla 9-cu yeri tutmuşlar. Qızıl medallar isə 42 xal toplayan Moskvanın “Spartak” komandası futbolçularına təqdim olunmuşdur.

İnanın, bu məlumatdan sonra Abdullayevin SSRİ çempionatlarının güclülər dəstəsində vurduğu qol – hücuma qoşulan müdafiəçinin fərqləndiyi epizod o vaxt Litva paytaxtından canlı yayımlanan görüşün 88-ci dəqiqəsində “Neftçi” futbolçularının sevincli anlarını dərhal gözlərim qarşısında canlandırdı.

Top “Jalgiris”in qapısından keçən kimi bizimkilər qolun müəllifinə tərəf qaçaraq, onu qucaqlayıb, əlləri üstə qaldırıb, bir qədər irəli, meydanın mərkəzinə tərəf apardılar. Hamının sevinci hədsiz idi. Gözlənilmədən hücuma qoşulan Əsgər komandasını məğlubiyyətdən xilas etmiş və ona çox mühüm 1 xal qazandırmışdı. “Neftçi” Baltikyanı respublikadan Xəzər sahillərinə əliboş qayıtmayacaqdı.

Bir çox oyunda komandanı meydana kapitan kimi çıxarması Abdullayevin kollektivdə yüksək nüfuzunu, liderlik bacarığını təsdiq edirdi. Komanda yoldaşları da onun məsləhətlərini həmişə diqqətlə dinləyib, ümidlərini doğrultmağa çalışırdılar.

Kapitan bir futbolçu kimi çıxışlarını başa vurduqdan sonra məşqçilik fəaliyyətinə başlayıb, bir neçə komandanın “sükanı arxasında” dayanmış, Azərbaycan milli kollektivini də çalışdırmışdır. Bu komandada ən böyük uğuruna 2004-cü il Avropa çempionatının seçmə mərhələsində o zaman Serbiya və Çernoqoriya adlanan, indi isə Çernoqoriya, Monteneqro kimi tanıdığımız ölkənin komandası ilə oyunlarda nail olmuşdur. Millimiz hər iki görüşün gedişində hesabda geri düşsə də, əsl döyüşçü xarakteri göstərmişdir.

Rəqiblər əvvəlcə hazırda Çernoqoriyanın ən böyük şəhəri və paytaxtı Podqoritsada qarşılaşmışlar. Meydan sahibləri 2:0 hesabı ilə irəli çıxmış, amma Qurban Qurbanovun iki dəqiq zərbəsindən sonra tərəflər heç-heçəyə “razılaşmışlar” (2:2).

Bakıda, “Şəfa” stadionunda oynanılmış matçda da Azərbaycan kollektivi möhkəm iradə və böyük əzmkarlıq göstərmişdir. Yenə ilk qola Serbiya və Çernoqoriya sevinmiş, amma sonra Qurbanov penalti ilə hesabı bərabərləşdirmiş, Fərrux İsmayılov da öz növbəsində gözəl baş zərbəsi ilə oyunun taleyini komandamızın xeyrinə həll etmişdir – 2:1.

Onda 2003-cü ilin isti bir yay axşamı, iyunun 11-i idi. Əsgər Abdullayev, onun oyunçuları, azarkeşlər, bütün idman ictimaiyyətimiz xoşbəxtcəsinə gözəl bir gün yaşayırdılar…

Bu gün isə Azərbaycan 5 mart Bədən Tərbiyəsi və İdman Gününü bayram edir. Əsgər Məmməd oğlu Abdullayevin 65 illik yubileyinin bu əlamətdar hadisənin qeyd olunduğu aya, üstəlik də, erkən bahara təsadüf etməsi “Neftçi”mizin fədakar Əsgərinə taleyin töhfəsidir.

**O, barlı-bərəkətli baharda doğulmuşdur. Baharın bəzəyi isə futboldur!**

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Xalq qəzeti.- 2025.- 5 mart, (№ 49).- S.10.